ƏDƏBİYYAT qəzeti 19 mart 2022-ci il 23

# Mədəniyyət Mərkəzində Nizami günü



Bu günlərdə İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzi dahi şair Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə açan Mədəniyyət Mərkəzinin sədri Əli Purmərcan mütəfəkkir şairin məkan və zamana sığmayan bəşəri poeziyasından, dünyanın söz xəzinəsinə bəxş etdiyi qiymətli incilərdən danışaraq bildirmişdir ki, əslində Nizamini yubileydən yubileyə deyil, hər il, hətta hər gün xatırlamağa dəyər. Natiq şərq sivilizasiyasının yetirdiyi dahi söz sənətkarının dünyanın hər bucağında sevilməyinin sirrini onun təlqin etdiyi humanizm duyğuları və hər kəsi düşündürmək bacarığına malik lirik-fəlsəfi poeziyası, epik təfəkkürü, fitri istedadı ilə əlaqələndirmişdir.

Tədbirdə iştirak edən şair və tədqiqatçılardan Gülbala Fənayi, Adil Əkbər, Nurəddin Dərafərin, Adil Cəmil, Ağacəfər Həsənli Nizami dühasının bəşəri və yaşarı mahiyyətinə toxunaraq onun poetik irsindən nümunələrə təhlili münasibətlərini bildirmişlər.

Sonda tanınmış xanəndə Aqil Məlikovun ifasında Nizami qəzəllərindən nümunələr tar-kamanın müşaiyəti ilə səslənmişdir.